# Gözəl insan, böyük alim, yaxşı idarəçi

## Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov gördüyü işlərlə gənclərin sevimlisinə çevrilib

**Minlərlə tələbələrin fəxrlə, qürurla "mənim rektorum", "mənim sevimli müəllimim" dediyi böyük ziyalımız, alimimiz, akademik Abel Məhərrəmov haqqında portret yazını yazmağa başlayarkən könlümdən bir ilğım, səhər mehi kimi hisslər keçdi. Mən onunla həmişə fəxr edir, qürur duyuram. Çünki ötən illər ərzində gördüyü əzəmətli işlərlə, qazandığı böyük uğurlarla, alın təriylə o, vətənin halal bir övladı, böyük vətəndaşı olmaq səlahiyyətini qazanıb.**

Əllinci illərin uşaqlarına xas olan romantikanı, gələcəyə nikbin baxışı, təmizliyi, saflığı, qəlb genişliyini, sadəliyi, səmimiliyi, zəhmətsevərliyi, xeyirxahlığı, böyük vətən sevgisini Abel müəllim illərin o tayından əmanət kimi bizlərə yadigar gətirib.

Gözəl ziyalı ailəsində tərbiyə alması da onda çox şeyləri şərtləndirib. Abel müəllimin Məmmədəli müəllim, Şəfiqə xanım kimi müdrik, mehriban, duyğulu, cəfakeş, tələbkar valideynləri olub.

Ötən əsrin əvvəllərinin zülmətdə işıq olan müəllimlərinə bənzəyən bu gözəl ziyalı ocağının - iki əzəmətli çinarın pöhrəsi olan gənc Abeli çox-çox sonralar dünyanın hər yerindən görəcəkdilər.

Kimya elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Yusif Məmmədəliyev mükafatı laureatı, "Şöhrət" ordenli akademik Abel Məhərrəmov Rumıniya Respublikasının ali dərəcəli "Komandor" ordeni, İqtisadi Əməkdaşlıq Təşkilatının qızıl medalı ilə təltif edilib, Rumıniya Respublikasının Ovidius Universitetinin və Türkiyə Respublikasının Kırıkkale Universitetinin fəxri doktoru adına layiq görülüb. 51 monoqrafiyanın, dərsliyin və dərs vəsaitinin, 700-dək elmi məqalənin, 54 ixtiranın, 100-dən çox publisistik məqalənin müəllifi olan akademik Abel Məhərrəmovun rəhbərliyi ilə 53 elmlər namizədi (fəlsəfə doktoru) və elmlər doktoru dissertasiya işlərini uğurla müdafiə edib.

Bir sıra qabaqcıl Avropa ölkələrinin məşhur jurnallarında elmi məqalə və tezisləri dərc edilən görkəmli alimin müəllifliyi, həmçinin redaktorluğu ilə BDU-nun tarixi və ölkəmizin ictimai-siyasi həyatı ilə bağlı 10-dan çox kitab nəşr edilib.

Dünyanın bir çox ölkələrində kimya elminin görkəmli simalarından biri sayılan akademik Abel Məhərrəmovun qazandığı uğurların bir hissəsinin qısaca bu xülasəsi heç də onun həyat və fəaliyyətinin ümumi mənzərəsini əks etdirmir.

1999-cu ildən rektoru olduğu Bakı Dövlət Universitetinin müstəqillik illərində qazandığı böyük uğurlarda Abel müəllimin müstəsna xidmətləri olub.

Mən öz müşahidələrimdən çıxış edərək fikirlərimi, duyğularımı bölüşürəm. Sevinirəm, fəxr edirəm ki, Bakı Dövlət Universitetinin tələbəsi, doktorantı olmaq xoşbəxtliyi mənə də nəsib olub. Tələbəlik illərində "50+50" qrant proqramının qalibi olmuş, yaxşı tələbə kimi universitet rəhbərliyi tərəfindən fəxri fərmana layiq görülmüş, 2011-ci ildə Xarkov Milli Universitetinin magistr pilləsində ölkəmizi ləyaqətlə təmsil edib fəxri fərman və diplomla mükafatlandırılmışam. 2012-ci ildə doktorant və gənc tədqiqatçıların konfransında birinci yerə layiq görülmüşəm. Müxtəlif mətbuat səhifələrində 50-yə yaxın məqalələrim dərc edilib. Bakı Dövlət Universitetinin doktoranturasına uğurla imtahan verib qəbul olunduğum və oxuduğum illərdə Abel müəllimin obyektivliyinin, prinsipiallığının, böyüklüyünün, diqqət və qayğısının canlı şahidi olmuşam.

Hər bir tələbəyə, doktoranta əsl dost, ata qayğısı göstərən akademik Abel Məhərrəmov dünyaya baxışı, duyğu və düşüncəsi, yenilik hissiylə təkcə dünənin, bu günün yox, həm də sabahın insanı olduğunu sübut edib. Bakı Dövlət Universitetiylə bağlı həyatımın hər gününü ömrümün ən mənalı, unudulmaz günlərindən sayıram.

Gənclərin universitetin elmi həyatında və idarəçiliyində oynadığı rol Abel müəllimin adı ilə bağlıdır. İstedadlı gəncliyə meydan vermək, əsl yaradıcılıq mühiti yaratmaq elə istedadlı insanlara xas olan xüsusiyyətdir.

Abel müəllim istedadlı gəncliyin dostu, himayəçisidir. Gözəl ideya, axtarışlar arzusuyla onun qapısını döyən hər bir kəsə qayğısını, diqqətini əsirgəmir.

Vaxtının azlığına baxmayaraq Abel müəllim çox vaxt özü tələbələrin, gənclərin arasında olmağa, onların qayğı və problemləri ilə maraqlanmağa çalışır. Xalq şairi Bəxtiyar Vahabzadənin unudulmaz bir misrası var:

*Qorxuram dünyada bir zaman gələ,*
*İnsanlar yaşaya, insanlıq ölə.*

Abel müəllim bəşəriyyətin qana, qadaya, qaramata sürükləndiyi bir dövrdə insanı, insanlığı qorumağa çalışan nadir ziyalılarımızdandır.

Heydər Hüseynov, Yusif Məmmədəliyev, Həmid Araslı, Məmməd Cəfər, Məmməd Arif, Hidayət Əfəndiyev, Əli Sultanlı, Mir Cəlal, Cəfər Xəndan, Əli Fəhmi, Feyzulla Qasımzadə, Muxtar Hüseynzadə, Bəxtiyar Vahabzadə, Əzizə Cəfərzadə və bir çox görkəmli şəxsiyyətlərin iz qoyub getdiyi elm ocağına ləyaqətlə rəhbərlik etmək, dünyanın ən qabaqcıl universitetləri ilə əməkdaşlıq etmək, onların sırasında boy göstərmək hər kəsə nəsib olan xoşbəxtlik deyil. Bu ağır və həm də şərəfli missiyanın öhdəsindən bacarıqla gələn akademik Abel Məhərrəmov universitetin zəngin keçmişinə, sürətli inkişafda olan bu gününə və xoşbəxt gələcəyinə arxalanır.

Ulu öndər Heydər Əliyevin inam və etibarını şərəflə doğruldan xalqının bu sadiq əsgəri köhnə stereotipləri büsbütün dağıdıb, beyinlərdəki Arktika buzlaqlarını əridib, Universitet həyatına bir istilik, sağlam ruh, yenilik, əsl canlanma gətirib.

Akademik Abel Məhərrəmov daima yenilik hissiylə yaşayan bir insandır. Abel müəllimin qəlbi, ürəyi, gözü, könlü, ən sadə insanlara belə sevgi, mərhəmətlə dopdoludur. Qapıları hamının üzünə taybatay açıqdır. İstər böyük alim, xeyirxah insan kimi, istərsə də qabaqcıl elm ocağının rektoru kimi insanlar ona dərdləri, qayğıları ilə üz tuturlar.

Abel müəllimlə söhbət edən hər bir kəsin qəlbində bir inam, bir ümid çırağı yanır.

Yüksək intellekti, mədəniyyəti, yurduna-yuvasına böyük məhəbbəti olan bu bənzərsiz insan rəhbərlik etdiyi elm ocağına milli ruh, qaynarlıq, bəşəri doğmalıq gətirib.

Bakı Dövlət Universitetinin həyatına daxil olan hər bir kəs bu doğmalığı, istiliyi, qeyri-adiliyi, rahatlığı, Abel müəllimin dəstxəttini hiss edir.

Gərgin axtarışları ilə fundamental elmlər sahəsində unikal yeniliklərə imza atan görkəmli alim həm də yüksək idarəçilik keyfiyyətləri, ictimai-siyasi fəallığı, böyük vətəndaşlığı ilə seçilir.

İstər ölkəmizdə, istərsə də xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə Azərbaycanı ləyaqətlə təmsil edən akademik Abel Məhərrəmov bir ictimai xadim, görkəmli elm adamı kimi xalqımızın mənafeyini, haqq işini həmişə müdafiə edir, beynəlxalq əlaqələrin genişlənməsinə, Bakı Dövlət Universitetinin dünya universitetləri arasında imzasının olmasına çalışır.

Son 15 ildə BDU-nun Beynəlxalq əlaqələrinə, sivil dünyanın ən mütərəqqi yeniliklərinin bu qabaqcıl elm ocağına gətirilməsinə diqqət yetirdikdə görülən əzəmətli işlərin ümumi mənzərəsinin şahidi olursan.

Son illər dünyada baş verən hadisələrin fonunda Azərbaycan Respublikasının inamla, qətiyyətlə sabaha addımlaması möhtərəm prezidentimiz İlham Əliyevin apardığı uğurlu uzaqgörən siyasətin nəticəsidir. Bu işdə ölkə prezidentinin rəhbərliyi altında çalışan görkəmli ziyalılarımızın, elm adamlarımızın da xidmətləri olub.

Abel müəllimə xas bir çox cizgilər təəssüf bu gün bir çox ziyalılarımızda yoxdur. Bunları sadalamasam bəlkə də sevimli rektorumun portret cizgilərində bir natamamlıq olardı.

Abel müəllim ilk növbədə ədalətlidir. Həmişə haqqın tərəfində dayanandır. Ona görə də hər bir nümunəvi, işgüzar, istedadlı tələbə uca bir dağa söykəndiyinin fərqindədir.

Abel müəllim prinsipialdır. İdealları uğrunda döyüşməkdən çəkinməyən əsl qladiatordur.

Abel müəllim sadə və səmimi dostdur. Hər bir tələbə öz dərdini, qayğısını onunla bölüşə bilir. Akademik tələbələrini öz doğma balaları qədər çox istəyir. Bu, böyük xoşbəxtlikdir.

Abel müəllim gözəl tərbiyəçi, təşkilatçı, istedadlı alim, son dərəcə maraqlı müsahib, mən deyərdim, mənəvi paklıq nümunəsidir. İpək kimi ürəyi var. Abel müəllim nəcibliyi, səliqə-sahmanı, danışığı, şəxsiyyətindəki təvazö ilə hamıya nümunədir.

Aydın məntiqi, fitrətən xəlqiliyi, həssaslığı, dəqiqliyi və ən başlıcası, xeyirxahlığı onu hamının gözündə ucaltmışdır.

Abel müəllim yenilik duyğusuyla hər gələn sabahı gözləyən və tələbələrdə də bunu görmək arzusuyla yaşayan unikal bir insandır. Bakı Dövlət Universitetinin gündəlik qaynar həyatı ilə tanış olanlar bunu yaxşı bilirlər.

Abel müəllim romantik bir insandır. Bakı Dövlət Universiteti ilə bağlı gələcək arzularını dinlədikcə heyrətə gəlirsən. Bu zəngin dünyası olan insan uçuş meydanından güc alan təyyarə kimi sabahlara - uzaq ənginliklərə doğru uçmaq arzusuyla yaşayır.

Onun vətən sevgisi, vətən məcnunluğu hər bir gəncə nümunədir. Yurdumuzun, eləcə də dünyanın dörd bir yanına səpələnmiş yetirmələri - Bakı Dövlət Universitetinin məzunlarının hər biri ürəklərində o sevginin zərrələrini yaşadır, Bakı Dövlət Universitetinin imicini, şərəfli adını uca tutmağa çalışırlar.

Bakı Dövlət Universiteti öz şərəfli tarixi ilə ali təhsil ocaqlarının flaqmanıdır.

Söhbət etdiyim bir çox sadə insanlar sevimli rektorumuzun böyük insanpərvərliyindən, xeyirxahlığından, sadəliyindən, əsl xalq elçisi olduğundan danışırlar.

Xalqın adamı olmaq səlahiyyətini, hörmətini, izzətini qazanmaq böyük xoşbəxtlikdir. Akademik Abel Məhərrəmov bu adı qazanmış əsl xalq adamıdır.

Yanvarın 5-i bizim fəxrimiz, qürur mənbəyimiz, sevimli rektorumuz, müəllimimiz Abel Məhərrəmovun ad günüdür.

Ad gününüz mübarək!

**Günel Məlikli,**
**BDU-nun doktorantı**




**Kimya elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Yusif Məmmədəliyev mükafatı laureatı, "Şöhrət" ordenli akademik Abel Məhərrəmov Rumıniya Respublikasının ali dərəcəli "Komandor" ordeni, İqtisadi Əməkdaşlıq Təşkilatının qızıl medalı ilə təltif edilib, Rumıniya Respublikasının Ovidius Universitetinin və Türkiyə Respublikasının Kırıkkale Universitetinin fəxri doktoru adına layiq görülüb. 51 monoqrafiyanın, dərsliyin və dərs vəsaitinin, 700-dək elmi məqalənin, 54 ixtiranın, 100-dən çox publisistik məqalənin müəllifi olan akademik Abel Məhərrəmovun rəhbərliyi ilə 53 elmlər namizədi (fəlsəfə doktoru) və elmlər doktoru dissertasiya işlərini uğurla müdafiə edib.**